2023

# AZƏRBAYCAN ÜZRƏ DƏMİRYOLU DAŞIMALARININ STATİSTİK MƏLUMATLARI



ALLIANCE LOGISTICS

# MÜNDƏRİCAT

2023-CÜ İL ÜÇÜN DAŞIMALARIN ÜMUMİ HƏCMİ…...............................3

DƏMİR YOLU DAŞIMALARININ TARİXİ DİNAMİKASI (2010-2023)….4

DƏMİR YOLU VƏ KONTEYNER DAŞIMALARINDA

ƏSAS TRENDLƏR (2019-2023)........................................................................5

TRANZİT REJİMİNDƏ YÜKDAŞIMALARIN ÜMUMİ HƏCMİ................6

ŞƏRQ-QƏRB DƏHLİZİ ÜZRƏ YÜKDAŞIMALARIN HƏCMİ...................7

ŞİMAL-CƏNUB DƏHLİZİ ÜZRƏ YÜKDAŞIMALARIN HƏCMİ..............8

İDXAL REJİMİNDƏ YÜKDAŞIMALARIN ÜMUMİ HƏCMİ.......................9

İXRAC REJİMİNDƏ YÜKDAŞIMALARIN ÜMUMİ HƏCMİ….................10

NƏTİCƏLƏR….....................................................................................................11

# 2023-CÜ İL ÜÇÜN DAŞIMALARIN ÜMUMİ HƏCMİ

2023-cü ildə Azərbaycan Dəmir Yolları ilə ümumilikdə 18,3 milyon ton yük daşınıb. Dəmir yolu xətti ilə daşınan yüklərin ümumi həcmində tranzit yükdaşımalarının payı ən böyükdür - 37%. Onlardan sonra idxal (27%) və ixrac (19%) rejimi ilə daşınan yüklər və daxili daşımalar (18%) gəlir.

2023-cü ildə "ADY" QSC-nin vasitəsilə konteyner daşımaları 105,3 min TEU-ya çatmışdır ki, bunun da 62% dolu, 38% isə boş konteynerlərdir.

Qrafik 1. ADY daşımaların 2023-cü il üçün ümumi həcmi (mln.ton)




Mənbə: Alliance Logistics

Qrafik 2. Konteyner daşımalarının 2023-cü il üçün sayı (min TEU)




Mənbə: Alliance Logistics

# DƏMİR YOLU DAŞIMALARININ TARİXİ DİNAMİKASI (2010-2023)

2013-cü ildən başlayaraq 2018-ci ilə qədər "Azərbaycan Dəmir Yolları" QSC tərəfindən yükdaşımaların ümumi həcmində davamlı azalma müşahidə olunur. Yalnız 2022-ci ildə əsasən dəyişən regional siyasi və iqtisadi mühitlə bağlı daşımalarda nisbi artımı qeyd edə bilərik. Buna baxmayaraq, dəmir yolu nəqliyyatı bu gün hələ də öz potensialının yalnız bir hissəsindən istifadə edir.

Qrafik 3. Dəmir yolu daşımalarının dinamikası (2010-2023) (mln.ton)




Mənbə: Alliance Logistics

# DƏMİR YOLU VƏ KONTEYNER DAŞIMALARINDA ƏSAS TRENDLƏR (2019-2023)

Son beş ildə dəmiryolu daşımaları qlobal və regional iqtisadiyyatda və ticarətdə mürəkkəb prosesləri əks etdirən çox istiqamətli dinamika nümayiş etdirmişdir. Göründüyü kimi, tranzit ADY üzrə nəqliyyatın potensial artımının əsas mənbəyidir.

Qrafik 4. Son 5 ildə dəmiryolu daşımalarının əsas cari göstəriciləri və trendləri (mln.ton)




Mənbə:
Alliance Logistics

Son bir ildə konteyner daşımalarının artımı dəmir yollarının iqtisadiyyatına mənfi təsir göstərən amillərdən biri olan boş konteynerlərin sayının artması ilə əlaqədar olmuşdur.

Qrafik 5. Son 5 ildə konteyner daşımalarının dinamikası (min TEU)




Mənbə:
Alliance Logistics

# TRANZİT REJİMİNDƏ YÜKDAŞIMALARIN ÜMUMİ HƏCMİ

Tranzitdə neft yüklərinin payının artması son illərdə nəzərə çarpan tendensiya olmuşdur. Neft sektorunda tranzit daşımaların payı 2019-cu ildəki 32%-dən 2023-cü ildə 42%-ə yüksəlib. Yük bazasının şaxələndirilməsi və tranzit coğrafiyasının genişləndirilməsi onun davamlı artımını təmin etmək və neft yüklərindən asılılığı azaltmaq üçün zərurətə çevrilir. Həmçinin, tranzit daşımaların artımını ləngidən əsas problemlərdən biri konteynerləşmənin həddən artıq aşağı səviyyədə olmasıdır.

Qrafik 6. ADY tərəfindən son 5 ildə tranzit rejimində daşınan yüklərin müqayisəsi (mln.ton)




Mənbə:
Alliance Logistics

Qrafik 7. Tranzit rejimində son 5 ildə konteyner daşımalarının dinamikası (min TEU)




Mənbə:
Alliance Logistics

# ŞƏRQ-QƏRB DƏHLİZİ İLƏ YÜKDAŞIMALARIN HƏCMİ

2023-cü ildə tranzit daşımaların həcmində əhəmiyyətli azalma müşahidə olunub, əsasən də Şərq-Qərb dəhlizi üzrə. Ən nəzərəçarpacaq azalma Çindən tranzit daşımalarında (azalma 82%), həmçinin Mərkəzi Asiya ölkələrindən tranzit həcmlərində müşahidə olunur ki, bu da 24% azalıb.

Qrafik 8. Orta Asiyadan tranzit daşımaları.




Mənbə:
Alliance Logistics

Qrafik 9. Çindən tranzit daşımaları




Mənbə:
Alliance Logistics

# ŞİMAL-CƏNUB DƏHLİZİ ÜZRƏ YÜKDAŞIMALARIN HƏCMİ

Şimal-Cənub dəhlizinin Azərbaycan ərazisindən keçən Qərb xətti Rusiya ilə İranı birləşdirən ən qısa marşrut sayılır. Bu səbəbdən cənub istiqamətində Rusiyadan dəmiryolu ixracı üçün üstünlük verilən marşrut olaraq qalır. Son illərdə Qərb xətti ilə dəmiryolu daşımalarının həcmi Şərq və Dəniz (Transxəzər) marşrutları üzrə analoji həcmləri xeyli üstələyib.

Qrafik 10. 2022-2023-cü illər üçün Şimal-Cənub dəhlizi ilə Rusiyadan ixrac yükdaşımaları (mln.ton)




Mənbə:
1520 International

# İDXAL REJİMİNDƏ YÜKDAŞIMALARIN ÜMUMİ HƏCMİ

İdxal sektorunda yükdaşıma həcmlərində nisbi sabitlik müşahidə olunur. Durğunluq tendensiyasının böyük ehtimalla davam edəcəyini nəzərə alsaq, həcmlərdə kəskin sıçrayışlar və ya yük bazasının strukturunda dəyişikliklər gözlənilmir.

Qrafik 11. İdxal rejimində yükdaşımanın ümumi həcmi




Mənbə:
Alliance Logistics

# İXRAC REJİMİNDƏ YÜKDAŞIMALARININ ÜMUMİ HƏCMİ

2023-cü ildə ixrac rejiminin yükdaşımalarında maksimal göstərici ilə balanslaşdırılmış artım nəzərə çarpır. Bununla belə, boş konteyner ixracının qeyri-adi yüksək səviyyəsi bu seqmentdə problemlər olduğunu göstərir və ətraflı təhlil olunmasını tələb edir.

Qrafik 12. İxrac rejimində yükdaşımanın ümumi həcmi




Mənbə:
Alliance Logistics

# NƏTİCƏLƏR

2022-ci ilin perspektivli dinamikasına baxmayaraq, 2023-cü ildə Azərbaycan ərazisindən keçən dəmiryolu daşımalarının həcmində cüzi geriləmə müşahidə olunub. Əsas azalma tranzit daşımalarında, xüsusilə Şərq-Qərb dəhlizində baş verib. Bununla yanaşı, tranzit və ixrac gələcək inkişaf və daşımaların həcminin artırılması potensialı olan əsas sahələr olaraq qalır.

Qlobal miqyasda beynəlxalq logistikanın inkişafındakı mövcud tendensiyaları nəzərə alaraq belə nəticəyə gəlmək olar ki, konteynerləşdirmə yükdaşıma həcmlərinin uzunmüddətli artımının, eləcə də yük bazasının və coğrafiyasının genişləndirilməsinin açarıdır. Lakin Azərbaycanda logistika sektorunun dəmir yolu seqmentinin dayanıqlı inkişafını təmin etmək üçün konteynerləşmədə mövcud dinamika qəbuledilməzdir.